# Xalqımız qürur duyur

Elə bil dünən idi, insanlar sonsuz bir sevgi ilə seçki məntəqələrinə səs verməyə tələsirdilər. Elələri də var idi ki, seçki məntəqəsinin qarşısında dayanıb səsvermənin başlanacağı anı səbirsizliklə gözləyirdi. Adamların üzündəki bayram əhvali-ruhiyyəsi coşqudan hiss olunurdu...

Günlər, aylar bir-birini çox sürətlə əvəzləyir. Qeyd etdiklərimi düz bir il bundan qabaq, bu ayın, elə bu günün, fevralın 7-də respublikamızın hər bir guşəsində müşahidə etmək olardı ...

Suveren, müstəqil, ərazi bütövlüyünü tam bərpa etmiş Azərbaycanda ilk dəfə prezident seçkiləri keçirilirdi...

İnsanlar Azərbaycanın suverenliyini təmin edən, ərazi bütövlüyünü tam bərpa edən, Qarabağı 30 illik erməni işğalından azad edən, vətənin birliyinin və bütövlüyünün rəmzi, ermənilərin 200 illik mənfur "böyük Ermənistan" yaratmaq arzularını birdəfəlik tarixin arxivinə gömürən tarixi şəxsiyyət, müasir Azərbaycan dövlətinin bütün sahələr üzrə inkişafının müəllifi İlham Əliyevə səs verməyə tələsirdilər.

Bu səs vətənə, torpağa, dinamik iqtisadi inkişafa, Azərbaycanın hər bir guşəsində ucalan üçrəngli müqəddəs bayrağa, ölkəmizin müstəqilliyi, torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçmiş igidlərimizin ideyasına, azadlıq uğrunda apardıqları mübarizəyə verilən səs idi. İlham Əliyev qurduğu, yaratdığı ordu ilə Qarabağı xilas etməklə bütün Azərbaycan xalqının arzusunu ifadə etmişdi. Dünən Qarabağın xilası uğrunda yumruq kimi birləşən xalq əl-ələ verərək seçki məntəqələrinə gəlib liderlərinə verdikləri səslə Vətənə, torpağa, liderə olan sevgilərini nümayiş etdirirdilər. Qarabağı işğaldan azad edən, Xocalıda Azərbaycan bayrağını ucaldan, işğaldan azad olmuş torpaqları yenidən bərpa edən və bu torpaqları sənı cənnətə döndərən İlham Əliyev xalqın gözündə, ürəyində, ruhunda bütöv Azərbaycan idi. Xalq öz seçimi ilə qüdrətli Azərbaycana səs verirdi.

2024-cü ilin 7 fevralı insanlarda əsl ümummilli bayram ovqatı yaratmışdı. Bir il tarix üçün çox da böyük zaman deyil. Bu bir ildə dünyanın siyasi xəritəsində dövlətimizin tutduğu mövqeyi görəndə İlham Əliyevə səs verən hər bir vətəndaş qürur hissi keçirir. Özünü qüdrətli Azərbaycanın bir parçası hesab edir.

Azərbaycanın əldə etdiyi uğurlar, tarixi qələbəmiz Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin nəticəsidir. Tarixdə az sayda liderə rast gəlmək olar ki, qısa müddət ərzində öz ərazisində 200 ildir kök salan separatizmi və terror bəlasını cəmi 44 gün ərzində ortadan götürsün.

Beləliklə, 2020-ci il Zəfəri ilə Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini yaradan Prezident hər keçən gün, hər ötən il Azərbaycana uğurlar bəxş edir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında qazanılan və Azərbaycanın ərazi bütövlüyünün, dövlət suverenliyinin tam bərpası ilə ədalətin və beynəlxalq hüququn təntənəsinə çevrilən Böyük Qələbənin salnaməsi tarixə qızıl hərflərlə yazılıb.

Dövlət başçısı bütün çıxışlarında Qarabağın azad olunmasında gənclərin xüsusi rolunu vurğulayır. Onların cəbhədə düşmənlə döyüşdə göstərdiyi misilsiz qəhrəmanlıqları bir Ali Baş Komandan kimi yüksək dəyərləndirir. Ölkəmiz üçün çoxsaylı nailiyyətlərlə yekunlaşan prezident seçkisindən keçən son bir ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə gənc nəslin intellektual, mənəvi və fiziki tərbiyəsi istiqamətində aparılan siyasətin uğurları öz bəhrəsini vermişdir. Ötən il Azərbaycanda təhsil, gənclik və idmanla bağlı görülən işlər ölkənin sosial-iqtisadi inkişafına, insan kapitalının artırılmasına, beynəlxalq əlaqələrimizin daha da möhkəmləndirilməsinə xidmət etmişdir. Dövlət başçısının il ərzində imzaladığı fərman və sərəncamlar həyatımızın bütün sahələri kimi, bu istiqamətlərdə də xüsusi diqqətin ayrıldığını əks etdirmişdir.

Azərbaycan dövləti insan kapitalının inkişafı istiqamətində ardıcıl strateji addımlar atır. Qarşıya qoyulan vəzifələrə uyğun olaraq bu sahədə genişmiqyaslı tədbirlər həyata keçirilir. Ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından, illərlə inkişafımıza mane olan problemlərin həllindən sonra Azərbaycanın daxil olduğu yeni strateji dövrdə bu məsələ böyük əhəmiyyət daşıyır. Bu mərhələdə əsas hədəf rifah dövləti kimi həyat standartlarını daha da artırmaq, respublikanı bütün istiqamətlərdə dünyanın inkişaf etmiş ölkələrindən biri statusuna yüksəltməkdir. İnsan kapitalı bu hədəfin reallaşdırılmasında, ölkəmizin iqtisadi inkişafı və rəqabət qabiliyyətinin artırılmasında həyati əhəmiyyət kəsb etməkdədir. Ona görə də Azərbaycan dövləti insan inkişafına yönəlmiş tədbirləri getdikcə genişləndirir.

2024-2025-ci tədris ilində yüksək təhsil nailiyyətlərinə görə 102 tələbənin Azərbaycan Respublikası Prezidentinin təqaüdü ilə təltif edilməsi ölkəmizdə istedadlı gənclərə verilən dəyərin bariz nümunəsidir. Bu təqaüd proqramı tələbələrin motivasiyasını artırmaqla yanaşı, elmi araşdırmaların da təşviqinə böyük kömək göstərir. Azərbaycan gənclərinin xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil almalarına kömək göstərmək üçün dövlət başçısı "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli sərəncamının müddətini artıraraq 2028-ci ilə qədər uzatmışdır. Eyni zamanda sərəncamdakı digər müvafiq dəyişikliklərlə bu proqramın daha da effektivliyinə, ən çox istedadlı gənclərimizin bu imkandan faydalanmasına, ölkəmizin də xarici universitetlərdə yeni bilik və bacarıqlara yiyələnən gənclərin potensialından daha səmərəli şəkildə faydalana bilməsinə şərait yaratmışdır.

Heç də təsadüfi deyil ki, bu gün İlham Əliyevin təcrübəsi, uğurlu diplomatiyası, sərkərdəlik qabiliyyəti təkcə postsovet məkanında deyil, regiondan kənarda da təhlil edilir, öyrənilir.

Ötən il ölkəmiz BMT-nin ən ali tədbirlərindən biri - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) yüksək təşkilatçılıq və peşəkarlıqla evsahibliyi etməklə dünya mediasının diqqət mərkəzində oldu.

Prezident seçkisindən keçən bir il ərzində Azərbaycanın mövqeləri siyasi, ticari-iqtisadi münasibətlər baxımından daha da möhkəmləndi.

Beynəlxalq aləmdə nüfuzlu lider kimi qəbul olunan Azərbaycan Prezidenti İlham Əliyevin xalqımız qarşısındakı xidmətləri, qlobal səyləri, yenilməz iradəsi, qətiyyəti və digər yüksək şəxsi keyfiyyətləri ölkəmizin əldə olunan nailiyyətlərini təmin edən mühüm amillərdir. Dövlət başçısının beynəlxalq arenadakı fəaliyyəti Azərbaycanı qlobal miqyasda tanınan nüfuzlu dövlətə çevirib. Prezident çoxsaylı beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq yaradaraq Azərbaycanın mənafeyini beynəlxalq səviyyədə uğurla müdafiə edir.

Arxada qalan bu bir ildə Azərbaycanın beynəlxalq nüfuzu daha da güclənib və bunun sayəsində böyük dövlətlər ölkəmizi güclü, müstəqil və etibarlı tərəfdaş kimi qəbul edirlər.

Dövlətimizin beynəlxalq iqtisadi-siyasi uğurlarından danışarkən D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olmasını da qürurla qeyd etməliyik. Azərbaycanın üzvlüyü ilə indi D-9 adlanan bu iqtisadi əməkdaşlıq təşkilatı yeni dünya qurmaq istiqamətində atılan mütərəqqi addımlardandır. Quruma üzv ölkələrin yerləşdiyi bölgə uzun illər, əsrlərdir güclərin toqquşan maraqlarının meydanına çevrilib. Azərbaycanın belə bir təşkilata üzv olması onun beynəlxalq aləmdə nüfuzunun artmasına çoxsaylı nümunələrdəndir. Bu, respublikamızın etibarlı bir dövlət olduğunu, davamlı, ardıcıl xarici siyasət yürütdüyünü göstərir. Azərbaycan lideri haqlı olaraq xalqımızın və bütün dünyadakı soydaşlarımızın böyük məhəbbətini, hörmətini qazanıb. Çünki onun hər bir qərarının, hər bir addımının arxasında Vətənə xidmət istəyi durur.

Ümummilli Lider Heydər Əliyevin qoyduğu möhkəm təməl üzərində Prezident İlham Əliyev dünya arenasında yüksək nüfuz qazanmış güclü, qüdrətli dövlət qurub.

Xalqımız vətənsevər, torpaqsevər xalqdır. 2020-ci ildə Vətən müharibəsində rəşadət göstərən ordumuz, Azərbaycan gəncliyi Vətən uğrunda canlarından keçməklə bu sevgini dünyaya bir daha nümayiş etdirdilər. 2024-cü ilin 7 fevralında xalqımızın lideri İlham Əliyevə verilən səslər də Vətənə olan sevginin ən parlaq nümunəsi idi.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.-2025.- 7 fevral (№ 27).- S.9.